## RESENZİYA

**Əlizadə Əsgərli***

# "Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)" kitabına konseptual yanaşma və qiymətləndirmə

**Kitabın adı:** Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)
**Müəllif:** Siracəddin Hacı
**Kitabın dili:** Azərbaycan dili
**Nəşr ili:** 2008
**Səhifəsi:** 460
**Nəşriyyat:** "Nafta-Press"
**Ölkə:** Azərbaycan
**ISBN** 9952-437-02-1




## 1.Giriş

Nizami Gəncəvi dünya şöhrətli Azərbaycan şairi və mütəfəkkiridir. 2021 -ci il Prezident sərəncamı əsasında "Nizami ili" elan edilmiş, onun "Xəmsə" əsərləri toplu halında Türkiyədə (Bakı, 2021, 912 s.) çapdan çıxmış, xeyli bədii, fəlsəfi, əxlaqi, estetik, dini, sosioloji, psixoloji, filoloji, pedaqoji, siyasi, hüquqi, tarixi, coğrafi kitab və məqalə yazılaraq nəşr olunmuşdur.

Elmi tədqiqat müəssisələri də "Nizami ili"nə xeyli töhfə vermişdir. "Nizami ili"ndə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda da çoxlu kitab çap edilmişdir. Xüsusilə, "Nizami Gəncəvinin həyatı və yaradıcılığı" adlı

* Filologiya üzrə elmlər doktoru, dosent,
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu baş direktorunun müşaviri, Bakı, Azərbaycan
E-mail: alizade.asgerli@gmail.com

irihəcmli kollektiv nəşr təqdirəlayiqdir. İnstitutda f.ü.f.d., elm və fəzilət sahibi Siracəddin Hacının da Nizami mövzusunda 10 kitabının təqdimatı keçirilib, müəllif Akademiyanın fəxri fərmanına layiq görülüb.

**2.Əsərləri**

Siracəddin Hacı nizamişünaslıq sahəsində “Nizami Gəncəvinin “Yeddi gözəl” məsnəvisinin şərhi”*(1-ci kitab),(”Bakı, 2019,677s.)* “Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)” *(2-ci kitab) (Bakı, 2008, 460 s.),* “Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)” *(3-cü kitab)(Bakı, 2009, 384 s.),* “Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)” *(4-cü kitab)(Bakı,2010, 767s.)*, “Həzrət Nizami Gəncəviyə görə, insan qəlbinin həqiqətləri” *(5-ci kitab)(Bakı, 2012, 504s.)* “Həzrət Nizami Gəncəvinin “Sirlər xəzinəsi” dastanındakı ilk dörd məqalənin şərhi” *(6-cı kitab) (Bakı, 2013, 587 s.)* “Həzrət Nizami Gəncəvinin “Sirlər xəzinəsi” dastanındakı V-IX məqalələrin şərhi” *(7-ci kitab)(Bakı, 2012, 596s.)* “Həzrət Nizami Gəncəvinin “Sirlər xəzinəsi” dastanının şərhi (X-XIII məqalələr)” *(8-ci kitab)(Bakı, 2015, 667s.)* “Həzrət Nizami Gəncəvinin “Sirlər xəzinəsi”məsnəvisinin şərhi(XIV–XVII məqalələr)” *(9-cu kitab)(Bakı,2016, 727s.)* “Həzrət Nizami Gəncəvinin “Sirlər xəzinəsi”məsnəvisinin şərhi (XVIII-XX məqalələr, kitabın sonu, mədhiyyələr, kitabın yazılma səbəbi, söz, mənzum sözün mənsur sözdən üstünlüyü, tövhid, münacatlar”) *(10-cu kitab)(Bakı,2017, 919 s.)* adlı kitabların müəllifidir. O, “Qurani-Kərimə giriş” *(Bakı, 2017, “Natta-Press”, 156 s.)* “Fatihə surəsinin anlamı” *(Bakı, 2018, 151 s.)* “Bəqərə surəsinin mesajları” (1-5-ci ayələr) *(Bakı, 2019, 145 s.)* kitablarını da nəşr etdirmişdir.

Siracəddin Hacının “Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)” *(“Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)” (2-ci kitab).Bakı, 2008, 460 s.)* adlı monoqrafiyasında İslam dinində peyğəmbərlik anlayışının prinsipləri, Qurani-Kərim və hədislər əsasında peyğəmbərliyin mahiyyəti, din və ədəbiyyat, ərəb, fars və türk mənbələrində nət mövzusu, Həzrət Nizami Gəncəvinin “Sirlər xəzinəsi” dastanında Həzrət Məhəmməd (s.a.s.) ilə bağlı III və IV nətlərin şərhi aydınlaşdırılıb. “Sirlər xəzinəsi” əsərindəki III və IV nətlərin şərhi ilə bərabər, Azərbaycan, türk, rus və fars dillərində qaynaqlar kitabda əsas yeri tutub. Məqalədə Siracəddin Hacının Qurani-Kərimin hikmətləri fonunda, Nizami sözünün məna və mahiyyətinə verdiyi mündəricəyə münasibət, müəllifin universal qiymətləndirmə, dəyər vüsəti və idrak dərkinin hüdudları göstərilib.

Fil.ü.f.d. Siracəddin Hacının *“Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)”* adlı ikinci kitabının elmi redaktorları prof.dr. Abdullah Kahraman (Sivas Cümhuriyyət Universiteti) və BDU-nun professoru, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, fil.e.d. Mahirə Quliyeva, rəyçiləri institutun baş elmi işçisi, fil.ü.f.d. Leyli Əliyeva, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi işçisi, fəlsəfə doktoru Yadulla Paşayev və ədəbi redaktoru AMEA Folklor İnstitutunun elmi işçisi, fil.ü.f.d. Vəfa Muradxan qızıdır.

**3.Peyğəmbərlik anlayışı və insanın fitrəti**

Əsər girişlə başlayıb və Hz. Məhəmməd (s.a.s.) azadlıq və nur peyğəmbəri kimi vəsf olunub. Peyğəmbər (s) Allahın göndərdiyi elmlə insanları düzgün yola hidayət edib. Bu baxımdan S.Hacı *ikinci nətə* aid aşağıdakı xətləri izləyib: elmin fəziləti və onu öyrənməyin yolları, imanın əsaslarının düşüncəmizdəki qaynaqları, haqq dinin özəllikləri, peyğəmbərlik anlayışının fəlsəfi mahiyyəti, peyğəmbərlərin vəzifələri və təbliğat metodları, ərəb, fars və türk ədəbiyyatında nətin bədii quruluşu, Nizamidəki nətin şərhi, Qurani-Kərimə, şərhlərə, hədislərə və Nizamidəki təzahürlərinə istinadlar. *III nətin şərhi* zamanı bunlar diqqətdə saxlanılıb: III nətin özəllikləri, peyğəmbərə təslimiyyətin ölçüləri (təmiz geyinmək, bədəni təmiz saxlamaq, misvaqdan istifadə, saç-saqqalın səliqəsi, ətir saxlanması), insanın fitrəti (bədən- nəfsin məkanı, ruh- ilahi qaynağın bağları), zəhmətin bərəkəti, mənası və Nizamidəki dərki, divan ədəbiyyatında peyğəmbərin “rəhim”, “rəhmət” və “rauf” adları.

Siracəddin Hacı beytlərin şərhi zamanı ümumtürk ədəbiyyatından paralel nümunələr verib, fikirlərini Qurani- Kərimin ayələri, onların tərcüməsi, şərh və izahları, habelə, bədii nümunələrlə tamamlayıb.

Kitabdakı qiymətli yazılardan biri *“Kəsraya yazılan məktub”*dur. Məktubda Həzrəti Məhəmməd *“Əcəm şahlarının şahı”* adlandırılıb. *“Əcəm şahı”* deyərkən indiki iranlıların babaları nəzərdə tutulub. Kitab müəllifi fikrin tarixi qaynağına varıb... İzah verib ki, peyğəmbərin (s.a.s.) Məkkə fəthindən sonra o, bir sıra dövlət başçısına islama dəvət üçün məktub göndərib. O zaman Ərəbistanla Kəsra imperatorluğu arasında ciddi əlaqələr olub. Kisra imperatorluğu Ərəbistanın quzey, şərq və cənub bölgələrini işğal etmişdi, ən böyük dövlət və hakimiyyət onlarda idi. Kisra imperatorluğunun rəsmi dini atəşpərəstlik, məcusilik olub. Onlar oda sitayiş ediblər. Onların Allah anlayışı islama uyğun deyildi. Peyğəmbər (s.a.s.) Bizans, Misir və Həbəşistan imperatorları kimi Kəsraya da eyni məzmunlu məktub yazmışdı. Məktub Kəsraya məkkəli Abdullah bin Huzafət is-Səhmi adlı imperator valisi

tərəfindən çatdırılmışdı. 38 il idi ki, hökmdarlıq edən Pərviz şah İslama dəvət məktubunu parça-parça etmişdi... Səhəri gün qəbuluna gələnlərə imperatorun oğlu tərəfindən öldürüldüyü xəbər verilmişdi... Peyğəmbər salavatullahın yaşadığı sonrakı 4 il ərzində İranda islam dini bərqərar olmuşdu. Tarixi faktın “Hz. Nizaminin misrasındakı “O əcəm şahları üçün yoldur, əcəm şahlarının şahənşahıdır” bədii düşüncəsinin həyati qaynağı göstərilib. Peyğəmbər (s.a.s.) “rəhmət evi”nin qurucusu, işığı və yoludur.

İslam dininə görə “doğru yol- nemət, yəni ağıl, iman, iradə və elm verilmiş kimsələrin yoludur”. Siracəddin Hacı IV beytin şərhindəki (“Onlar yolu sənə görə tapırlar”) *“doğru yol”* anlayışını “Allahın qoyduğu yol”, “İslam yolu”, “həqiqət yolu”, “Allahın rizasını qazandıracaq yol”, “inananların yolu”, “peyğəmbərlərin getdiyi yol”, “cənnətə gedən yol” kimi dəyərləndirib. Siracəddin Hacıya görə peyğəmbər (s.a.s.) ölçüləri- doğru yolda olmaq istəyidir, tövhid inancına sahib olmaqdır, Allahın birliyinə inanmaqdır. Doğru yol- dünya və axirət xoşbəxtliyidir, bu yolda iman istiqamət göstəricisidir. *Doğru yol Allahdandır, fəqət bu yolu seçməkdə insan iradəsinin payı vardır,* doğru yol sosial, iqtisadi, mənəvi-əxlaqi və dini məzmunu ifadə edir. Doğru yol uca Allahın rəhmət və nemətidir.

Siracəddin Hacı *beşinci beytin şərhində* Nizaminin *“Sənin kimi mərhəmətlilər azuqəni tək yeməzlər”* hökmündəki İslam peyğəmbərinin *“mərhəmət”* anlayışını “mərhəmətlilər təmiz olurlar, təmiz olanlar uca Allaha (c.c.) təslim olurlar, uca Allaha (c.c.) təslim olanlar “rəhmət evi” tikirlər, “rəhmət evi” tikənlər insanlara doğru yol göstərirlər”- mənasında qiymətləndirib. Alim *“Nizaminin tamaşa etmək”* anlayışının fəlsəfi-dini qaynağını da göstərib: yalnız mərhəmətli olmaq həqiqətləri görməyə, onu bilməyə yol açır, elə həqiqətlərin verdiyi nemətlərdən biri də mərhəmət duyğusudur. Nizamidə bu, *“gözəllik”, “aşiqlik halıdır”, “Allahla* (c.c.) *ünsiyyət, xəbərləşmə halı”, “özünü unutma halı”, “sevgi anı”, “aşiqlərin heyət halı”, “kamil iman hadisəsidir”.*Nizamiyə görə *mərhəmət* sevgi, halal “azuqə” ilə bağlıdır.

**4.Nizaminin peyğəmbərə (s.a.s.) olan ehtiyacı**

Siracəddin Hacı Nizaminin peyğəmbərə olan ehtiyacının bədii vasitələrini də şərh edib, peyğəmbərin saçı divan ədəbiyyatındakı *cim, dal və lam* hərflərinə təşbeh olunub. Nizamiyə görə, “bu dünyada və axirətdə xoşbəxtliyin yolu Hz. Məhəmmədi (s.a.s.) sevməkdir”. Nizami Gəncəvi həzrətin gözəlliyini ifadə etmək üçün hər şeyə nəzarət edən *ağılın* belə, onun *gözəlliyinə* məftun olduğunu poetikləşdirib.

Divan ədəbiyyatında Məhəmmədin (s.a.s.) *sultan* obrazı yaradılıb, “onun sərvətini uca Allah (c.c.) müəyyən edib, Onu uca Allah (c.c.) sultan

seçib, onun sultanlığı qiyamətədək davam edəcək. O, iki cahanın, peyğəmbərlərin, risalətin sultanı, "şəfqətin, mərhəmətin, ədalətin sultanıdır". Peyğəmbər (s.a.s.) ölçüdür, nizamdır: yerdəkilər və göydəkilər Hz. Məhəmmədə (s.a.s.) tabe olmasalar, onun ölçülərini qəbul etməsələr, kainatın nizamı pozular. Yerin və Göyün məhvəri Hz. Məhəmməddir (s.a.s.).

Siracəddin Hacı hər bir beytin şərhində heyrətamiz açıqlamalar verib: *"Bu aləmin islanmış ətəyi sənin sayəndə qurudu"* cümləsi ilə bildirib ki, şair *"aləmin islanmış ətəyi"* deyərkən günahları nəzərdə tutub. *"İslanmış ətək"* ifadəsi çirkaba bulaşmış mənasındadır. Bu da insanın normal hərəkətinə mane olur, *"günahlar da fərdin, cəmiyyətin inkişafına mane olur, doğru yolun önünü kəsir"* ("Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)", 2008, s.213). Bu günahlar sırasında Allaha şərik qoşmağı, zinanı, ata-anaya etinasızlığı göstərib, "günahlarla qəlbi qaralmış insanlar da cəmiyyətin əxlaqını pozar, yer üzü fitnə-fəsad yuvasına çevrilər" ("Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)", 2008, s.217). Günahdan qorunmağın da yolu "peyğəmbərin (s.a.s.) gətirdiyi ilahi elmi öyrənməklə, ilahi ölçüləri qəbul etməklə mümkündür" ("Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)", 2008, s.217). İslam bilicisi yazıb:

> *"Diqqət edin! Hər padşahın girilməsi yasaq bir ərazisi var. Unutmayın ki, Allahın (c.c.) yasaq ərazisi də haram etdiyi şeylərdir" (2, 218). Nizami yazıb ki, "Yerin göbəyi müşk göbəyini Səndən aldı". Yəni "Yerin göbəyi" dedikdə Kəbə anılıb."Qurani-Kərimə görə Kəbə uca Allahın (c.c.) yer üzündəki rəhmət, bərəkət və nur qaynağıdır, uca Allahın (c.c.) varlıq və birliyinin rəmzidir"* ("Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)", 2008, s.221).

Nizami *"Hz. Məhəmmədin torpağı"* ifadəsini də tez-tez işlədib. *"Sənin torpağın Süleymanın yelindən yaxşıdır",*- deyib. -*Bağ demirəm, cənnətdən də yaxşıdır".* Siracəddin Hacı Hz. Məhəmmədin (s.a.s.) varlığı ilə torpağın bərəkəti arasında bağlılığı, uyğunluğu görüb. "Torpaq həyat üçün nədirsə, Hz. Məhəmməd (s.a.s.) də insanlıq üçün odur"- hökmündə olub ("Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)", 2008, s.225). *"Bütün gözəlliklərin qaynağı odur. Onun torpağı cənnət bağından da üstündür"* ("Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)", 2008, s.236).

Müəllif peyğəmbərin (s.a.s.) nur içində olmasının gerçəyini Nizaminin *“Sənin kölgən yoxdur, çünki sən böyük işıqsan”* misrası ilə mənalandırıb. Şərhdə peyğəmbərin (s.a.s.) kölgəsinin yoxluğu Onun heç kimə bənzəmədiyinin əlaməti kimi təcəssüm edilib. O, bir nurdur, nurun isə kölgəsi olmaz.

Nizami peyğəmbərin nurunu *“böyük işıq”,* ilk yaradılan nur adlandırıb. *“Uca Allah (c.c.) onun nurundan sonra Lövhi-Məhfuzu, Qələmi, Cənnəti, Cəhənnəmi, göyləri, yer üzünü və insanları yaradıb”.* “Kölgə bağlı olduğu varlıqdan ayrı olmadığı kimi, Hz. Məhəmməd də (s.a.s.) hər zaman Allahın (c.c.) iradəsi ilə danışıb, hərəkət edib, insanları doğru yola yönəldib. O, uca Allahın (c.c.) nurunun daşıyıcısı və ötürücüsüdür” (“Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)”, 2008, s.249). *“Allahın kölgəsi”* Siracəddin Hacının təfsirində Allahın (c.c.) elçisi anlamındadır. O, ümmətin qurucusu, başçısıdır. Bu mübarək elçinin insanlara payladığı da uca Allahın (c.c.) nurudur” (“Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)”, 2008, s.250).

Siracəddin Hacının işlətdiyi *“Sənin müsəlmanlığının əlaməti dörd bayrağındır”* misrası Nizaminin 17-ci beytindəndir. Bilindiyi kimi, islam dini 5 əsas üzərində qurulub: Allahın *varlığı, birliyi, peyğəmbərin (s.a.s.) Allahın (c.c.) elçisi olması, namaz, oruc, zəkat və həcc.* Nizamidəki beytdə müsəlmanlığın 4 rüknü deyilərkən bunlar*:*Allahın *varlığı, birliyi, peyğəmbərin (s.a.s.) Allahın (c.c.) elçisi olması, namaz* nəzərdə tutulub. *“Sənin müsəlmanlığının rüknü- dörd bayrağındır,* beş (vaxt) namaz *isə Sənin sultanlığının beş növbəsidir*” (“Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)”, 2008, s.254)

**5.Cəmiyyət xoşbəxtliyinin əsasları**

Nizamidəki *cəmiyyət xoşbəxtliyinin əsaslarını* Siracəddin Hacı belə dəyərləndirib:

> *“Hz. Nizamiyə görə, insanın özü ilə, başqa insanlarla, uca Allahla (c.c.) razı olaraq yaşamasının şərti Allahın (c.c.) təkliyinə inanmaqdır. Bu təməl prinsip onun qurduğu “rəhmət evi”, “rəhmət ölkəsi”nin ideologiyası, ana yasasıdır”* (“Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)”, 2008, s.254).
>
> “Bu evi tikmək, belə bir cəmiyyəti yaratmaq üçün əsas şərt Allahın (c.c.) birliyinə inanmaqdır. Bu inanc insan cəmiyyətinin istiqaməti, onlara doğru yolu göstərən nurdur”. Nizamiyə görə, *“doğru yol (istiqamət) tövhid inancına əsaslanmalıdır”.*

İslamın əsas bayraqlarından biri *oruc* tutmaqdır. Oruc- dünyanın və fərdlərin yaşadığı cəmiyyətin daxili rahatlığını təmin edən bir ilahi buyuruqdur" ("Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)", 2008, s.258). Oruc- uca Allahın (c.c.) rizasını qazanmaq üçün tutulan ibadətdir; orucluq ayında insanlar sevinc və kədəri paylaşırlar, vətən, din, namus uğrunda şəhid olan insanlar yad edilər". *Zəkat*- cəmiyyətdə iqtisadi ədaləti təmin edən, insanlar arasında sevgini artıran əsaslardan biridir. *Zəkat vermək* ilahi buyruqdur. Zəkat *"təmizlik", "layiq olmaq", "arındırmaq", "bolluq", "bərəkət"* deməkdir. Zəkat prinsipləri bəlli olan dini vergidir. Zəkat dövlətlə milləti bir-birinə bağlayır.

*Həcc bayrağı- Həcc ziyarəti* maddi bir (Namaz bayrağı) ibadətdir. *"Cihadın ən üstün qəbul olunanı həccdir".*Nizamiyə görə, Namaz bayrağı- gündə beş dəfə qılınan namaz peyğəmbərə görə (s.a.s.) *"insanı ruhən təmizləyən, onu çirkin əməllərdən qoruyan ən təsirli dərmandır".* Namaz insanı ədalətsizlikdən, çirkinlikdən, günahdan qoruyur, namazı unutmaq insanı günahlara yönəldir, namaz davamlı qılınmalıdır. Nizamiyə görə, *namaz* bütün ibadətləri özünə birləşdirir. İbadətlərin ən böyüyü namazdır. Namaz dinin, insanın, cəmiyyətin qoruyucusudur.

Siracəddin Hacı *24-cü beytin* şərhində:

> *"Ərş sənin eyvanında bir kürsü qoyandır"- sətirində Sidr ağacının yerini və dəyərini mənalandırıb. Elmi qaynaqlara görə, peyğəmbər (s.a.s.) Cəbrayılı Sidr deyilən ağacın altında görüb. Sidrə ilk vəhyin endiyi yerdə bir ağac olub. O zaman bu ağac nura bürünüb, ağacın yanında "Cənnətül-Məva" (bağça) olub. "Şair demək istəyir ki, bu gecə Hz. Məhəmmədin (s.a.s.) ən çox nurlandığı gecədir. O, bu mübarək gecədə elm və müjdə almışdır, müşk və ənbər qaynağına çevrilmişdir"* ("Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)", 2008, s.290).

Qurani-Kərimdə *18-ci ayədə* uca Allahın *"ərşin sahibi"* olduğu bildirilib. Müqəddəs kitaba görə uca Allahın (c.c.) ərşi su üzərindədir, o, çox böyük və şərəflidir, ərşi mələklər daşıyır, uca Allah (c.c.) ərşə hökm edir. Mütəsəvvüfdə ərş ilk və ən geniş varlıq mərtəbəsidir, ondan sonra *kürsü* gəlir. Siracəddin Hacı yazır:

> *"Hz. Nizami deyir ki, ərş sənin eyvanında oturmağın üçün kürsü qoyan bir nökərdir. Ərş çox böyükdür. O, hakimiyyət rəmzidir, onu mələklər çiyinlərində daşıyırlar. Ancaq Hz. Məhəmmədin (s.a.s.) gücü, hakimiyyəti elə böyükdür ki, ərş onun nökəridir, merac gecəsi ərş onu qarşılayır, ona kürsü daşıyır"* ("Həzrət Nizami Gəncəvinin

yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)", 2008, s.296).

*25-ci beytdə* Siracəddin Hacı Nizamidəki poetik mənanı ifadə edib. "Hz. Nizaminin İslam peyğəmbərinin ruhunun ilk yaradılmış varlıq olduğunu ifadə etmək üçün seçdiyi ən gözəl obrazlardan biri *"sübh çağı"*dır. Sübh çağı həm ilk olmağı, həm təmizliyi, həm də bərəkəti ifadə edir... Həzrətin nuru günəş, ərşin nuru isə bir zərrədir" ("Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)", 2008, s.299).

Şairə görə, uca Allahın (c.c.) Hz. Məhəmmədə (s.a.s.) verdiyi ən böyük xəzinə *Qurani-Kərimdir*, onun xəzinəsi *peyğəmbərlikdir*. Əsl xəzinə isə elmdir. Nizamidəki bir fikir də belədir: *xəzinə qazanmağın yolu heçliyini dərk eləməkdir*. Siracəddin Hacı yazır:

> *"Hz. Nizamiyə görə, insan öz heçliyini, faniliyini anlamasa, "xəzinə" qazana bilməz, həyatı doğru qavramaz, uca Allahı (c.c.) tanımaz"* ("Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)", 2008, s.308).

Hacı bu fonda İffət Burseli, Şeyxi, Fazil, Esrar Dədə, Osman Növrəs, Yəhya bəy, Qafzadə Faizi, Tağızadə Cəfər Çələbi, Nadiri, Nəbi, Ətayi və başqalarından xeyli nümunələr verib.

Uca Allah (c.c.) Qurani-Kərimdə *dua oxumağı* buyurub. "Rəbbinizə yalvara-yalvara, həm də gizlicə dua edin. Şübhəsiz, O, həddi aşanları (qışqıraraq dua edənləri) sevməz" ("Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)", 2008, s.314-315). İslam peyğəmbərinə görə, *dua ibadətdir.*Siracəddin Hacının qavrayışında:

> *"Hz. Nizami deyir ki, Hz. Məhəmmədin (s.a.s.) duasının hədəfi, çatdığı ünvan sonsuz göylərdir"* ("Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)", 2008, s.317).

"Qurana görə ağıl nemətdir, yalnız ağlı olanlar uca Allahı (c.c.) tanıyar, nəsihətə qulaq asar, ibrət götürər" ("Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)", 2008, s.323). Siracəddin Hacı öz dərki ilə biçimləndirir, düsturlaşdırır: "Qurana görə, *ağıl* insana verilmiş bir nurdur, doğrunu əyridən seçən cövhərdir. Ancaq Hz. Nizami deyir ki, ağıl xəstədir və özünə şəfa axtarır. Burada şair "ağıl xəstədir" deyərkən ağlın hər şeyi dərk etmək imkanı olmadığını nəzərdə tutur" ("Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)", 2008, s.323). Hz. Nizamiyə görə, Hz.

Məhəmməd (s.a.s.) təbibdir. Ay da hər zaman hərəkət edərək ən möcüzəli varlığı axtarır, bu möcüzəli varlıq da Hz. Məhəmməddir (s.a.s.).

"Sirlər xəzinəsi"ndəki *IV nətin* başlıca özəllikləri haqqında yazan Siracəddin Hacı bildirir ki, IV nət ideya və məzmun baxımından öncə yazılmış nətlərlə sıx bağlıdır. Nətin beytləri bir-birini tamamlayır. Birinci beytdə Nizami Məkkə və Mədinənin anlamını ifadə edib, Şəmsi, Cezmi və Füzulidən bədii nümunələr gətirib. İkinci beytdə şair Hz. Məhəmməddən (s.a.s.) nur və ətir istəyir, onu sönməyən bir nur, ətri azalmayan bir gül hesab edir.

Bütün beytlərin əxlaqi-fəlsəfi izahını verən şərhçi-alim *səkkizinci beytdə* aydınlaşdırıb ki, "şairə görə cəmiyyətin əxlaqını pozan ikinci qüvvə" *"günahkar ruhanilər"*dir. Hökmdarlar taxtı ələ keçirdikləri kimi, "günahkar ruhanilər" də minbəri ələ keçirib. Onlar din adına xalqa yalan danışır, dini şəxsi mənfəətlərinin alətinə çeviriblər" ("Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)", 2008, s.346). Nizami deyir ki, "Hz. Məhəmməddən (s.a.s.) sonra dünyanı cin kimi ədalətsiz hökmdarlar və günahkar ruhanilər tutublar. Bu iki qüvvə cəmiyyətin əxlaqını pozub, insanları yolundan çıxarıb, ədalət, din və iman kimi dəyərlər zədələnib" ("Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)", 2008, s.349). "Onlar: ədalətsiz hökmdar və günahkar ruhanilər insanları cəhalətdə saxlayıblar" ("Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)", 2008, s.349).

*On birinci beytdən*: Onların idarə etdiyi cəmiyyət ruhsuz bədən kimidir (iylənir, çürüyür, haqsızlığa bəraət qazandırır, pisliklərə qarşı müqavimətini artırır).

**6.Ədalətli cəmiyyətin ölçüləri**

Nizami *ədalətli cəmiyyətin* ölçülərindən danışıb. Həmin ölçülərə bunları aid edib: ölkə ağılla, bacarıqla, ədalətlə idarə edilməli, bilik, ağıl və bacarıq ölkənin və insanın inkişafına yönəlməli, hökmdarlar və insanlar səbirli olmalı, ədalətli idarəçilikdə sınama, təhlükəsizlik üçün ehtiyat ərzaq, silah və başqa zəruri şeylər toplanmalıdır. Süleyman peyğəmbər qarışqaların belə dilini bildiyi halda, Hz. Məhəmməd (s.a.s.) də ümmətinin dilini bilib.

Hz.Nizaminin dərkində *"ruhun"* da dəyəri verilib. Qurana görə, *"ruh"* Cəbrayıl, "vəhy" anlamındadır, canlara həyat verən gücdür, insanın cövhəri və əsasıdır, *"ruh"* insanın kimliyini, xarakterini müəyyən edir.

Siracəddin Hacıya görə, Nizaminin "Sirlər pərdəsinin ardında odur, Biz hamımız yatmışıq, sən isə ayıq ol"- misrasının mənası belədir:

> *“...ey Məhəmməd (s.a.s.) gizli gəl, gəlişini bir kimsə bilməsin, “sirlər pərdəsi”nin arxasında otur, yəni qorun, işini ehtiyatlı tut, təhlükəsizliyini təmin etməyin yolu da işlərini gizli görməkdir, sirr saxlamaqdır”* (“Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)”, 2008, s.412).

*“Sirlər pərdəsi”* anlayışı ilə şair demək istəyib ki, ey nurlu peyğəmbər, gəlişinin vaxtını, niyyət və məqsədini, gələcəyin yolu, qalacağın yeri, görəcəyin işləri, təhlükəsizliyinə bağlı heç bir məsələni bir kimsəyə söyləmə. Bu, ən doğru yoldur. Zalımlarla mübarizədə uğur qazanmağın, özünü qorumağın tək yolu budur” (“Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)”, 2008, s.412-413).

Nizami *doğruluğa, doğru sözə* xüsusi yer verib. Şairə görə, Hz. Məhəmməd (s.a.s.) bir xilaskardır, onun əxlaq ölçülərindən biri doğruluqdur, doğruluq islam əxlaqının əsaslarından biridir, doğruluq insanı xeyirə, yaxşılığa yönəldir. “Belə insan uca Allah (c.c.) yanında sadiq insan olaraq qeyd edilir. Yalan bərəkəti azaldar, yox edər, doğruluqda həm də böyük mükafat vardır. “İslam peyğəmbərinə görə, uca Allahın (c.c.) rizasını qazanmağın tək yolu da doğruluqdur. Doğru ola bilmək, doğru yaşaya bilmək üçün də orta yolu tutmaq şərtdir” (“Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)”, 2008, s.422).

*23-cü beytin* şərhində Siracəddin Hacı Nizamiyə istinadən *“inayətin” (xeyirxahlıq, iltifat, meyil, niyyət, çalışma)* məna tutumunu aydınlaşdırıb. Niyyət barəsində islam peyğəmbəri belə buyurub:

> *“Görülən işlər niyyətlərə görə dəyərləndirilir. Hər kəs etdiyi işin qarşılığını niyyətinə görə alır. Kimin niyyəti Allaha və Rəsuluna qovuşmaq, onlara hicrət etməksə, əlinə keçəcək savab da Allaha və Rəsuluna hicrət savabıdır. Kim də əldə edəcəyi bir dünya malı, ya da evlənəcəyi bir qadına qovuşmaq üçün yola çıxmışsa, onun hicrəti də hicrət etdiyi şeyə görə dəyərlənir”* (“Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)”, 2008, s.424).

Niyyətdə *səmimiyyət,* yəni *doğruya inam* vardır. Sağlam niyyət imanın bir parçasıdır. “İnsanın niyyəti onun hədəfi ilə sıx bağlıdır. Əgər insan böyük işlər görmək istəyirsə, uca Allahın (c.c.) rizasını qazanmaq istəyirsə, bu istəyə uyğun hədəf seçməlidir” (“Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)”, 2008, s.425).

Siracəddin Hacı qiymətli fikirlər söyləyib. Söyləyib ki, insanın niyyəti onun hədəfi ilə bağlıdır. Uca Allahın (c.c.) rizasını qazanmaq istəyirsənsə,

böyük hədəfin də olmalıdır, *iradə, çalışma, səbr və dözüm* göstərilməlidir. “Niyyət bir fədakarlıq, aşiqlik, sevgi hadisəsidir. Sağlam niyyət axirət inancının bir parçasıdır. Niyyət üçün ən dəyərli şey vaxtdır, o doğru işlərə sərf edilməlidir”.

*24-cü beytin* şərhində Siracəddin Hacı ümmətin peyğəmbərə (s.a.s.) olan ehtiyacını- Nizami dərkindəki ifadəsini şərh edib. “Şair bir yandan insanın yaradılış özəlliyini anlatmış *(torpaqdan yaradılış- Ə.Ə.)*, başqa yöndən isə insanın zəif bir varlıq olduğunu, günahlara meyil etdiyini vurğulamaq istəmişdir” (“Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)”, 2008, s.431-432). Çünki insanın fitrətində nankorluq, acizlik vardır.

*27-ci beytin* mənası da ibrətlidir,- *vəfa* haqqındadır. Yəni “şairə görə, *vəfa anlayışı* islama bağlı əxlaqın, Hz. Məhəmmədin (s.a.s.) insanlararası münasibətdə, insanla uca Allah (c.c.) arasında münasibətin qurulmasında çox önəm verdiyi prinsiplərdən biridir” (“Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)”, 2008, s.438).

Siracəddin Hacı ifadə edib ki, *vəfasızlıq* insanın əxlaqını pozur, yalana, cəhalətə yol açır. Şairə görə, insanlar arasında *vəfa, inam, etibar* duyğusu qaranlıqdan qurtuluşa yol açır, bu isə uca Allaha (c.c.), onun birliyinə inamla mümkündür. Vəfalı olmaq inamın əlamətidir. “İnsanın mömin olub-olmaması onun vəfası ilə ölçülür” (“Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)”, 2008, s.443). Hz. Nizami də islam peyğəmbərindən *“vəfakarlıq ətri”*, peyğəmbərdən *dua* istəyib.

Kitabın *“Uca Allah (c.c.) Nizaminin duasını qəbul etmişdir”* adlı son səhifələrində Siracəddin Hacı Hz. Nizaminin *“Süleyman mülkünü”* istəməsini şərh edib. Mahiyyət budur ki, şair Yer üzünün maddi mülkünü yox, mənəvi mülkünü istəyib. Yəni Süleyman peyğəmbər kimi istəyib ki, Yer üzündə ədalətli, azad bir cəmiyyət qurulsun, ilahi qanunlar hakim olsun. İnsan ağlı, zəkası, şeir və sənəti bu ideala xidmət etsin. *“Süleyman mülkü”* mömin insanların məkanı olsun.“Şair istəyir ki, uca Allah (c.c.) onun sözünün “Süleyman mülkünü” tutmasına yardım etsin” (“Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)”, 2008, s.444).

Yer üzündə- *“Süleyman mülkündə”* ədaləti yalnız *Allaha (c.c.) vəfalı olmaqla* bərqərar etmək olar. Şair bu niyyətində, andında qərarlıdır. O, uca Allahın (c.c.) adını bütün dünyaya yaymaq, imanlı insan tərbiyə etmək, Allah

(c.c.) eşqini insanların qəlbinə yığmaq istəyir. Siracəddin Hacının kitabları, doğrudan da, hikmət xəzinəsi, ibrət və öyrənmək məktəbidir.

**7.Nəticə**

Siracəddin Hacının “Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)” adlı *2-ci kitabı* Qurani-Kərimin hikmətlərini ehtiva edən, “Nizami” sözünün məna və mahiyyət mündəricəsini gerçəkləyən, universal dəyər və idrak dərki kəsb edən, metafizik baxışlar toplusudur.

Görkəmli tədqiqatçı Siracəddin Hacının Nizami haqqında kitabları, fikir və düşüncələr səltənəti, başdan-başa müdriklik qaynağıdır. Nizamişünaslığa yeni mərhələdə universal baxışdır. Konseptual yanaşma və dəyərləndirmələrdir. İlahiyyatçı alimin “Nizamişünaslıq” məsələlərini ehtiva edən kitabları mənbəşünaslıq və mətnşünaslığı zənginləşdirməyin kamil nümunəsidir. Kitab və müəllif şərhləri fololoji, fəlsəfi və əxlaqi-estetik fikrimizin nümayəndələri üçün hüdudsuz ilham mənbəyidir.